UOT 339.727

*Fuad Oqtay oğlu HACIYEV*
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

# KAPİTAL İXRACI VƏ İNNOVASİYA FƏALİYYƏTİ ARASINDA ƏLAQƏLƏRİN TƏHLİLİ

*Xülasə*

**Tədqiqatın məqsədi:** Məqalədə kapital ixracının və innovasiyalı inkişafın müxtəlif əlaqələri tədqiq olunur. Müəllif müasir zamanda Azərbaycanda kapitalın ixracının aktual inkişaf istiqamətlərinə də toxunub.

**Tədqiqatın metodologiyası:** Müqayisəli və analitik təhlil.

**Tədqiqatın tətbiqi əhəmiyyəti:** Müəllif bir sıra nəzəri və praktiki məsələlərə diqqət yetirib və ətraflı təhlil aparıb.Tədqiq olunan aspektlərdən kapital ixracının cəlb olunmasının üstünlükləri, elmi-tədqiqat və təcrübi-konstruktor işlərində investisiyaların dinamikası, Azərbaycanda İKT mütəxəssislərinin mülkiyyət növünə görə məşğulluğu kimi məsələlərin adını çəkmək olar.

**Tədqiqatın nəticələri:** İnnovasiyalı iqtisadiyyatın inkişafına xarici investisiyaların təsirini xarakterizə edən model verilmişdir. Məqalənin sonunda aparılmış tədqiqat üzrə elmi nəticələr əks olunmuşdur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Nəzəri-metodoloji məlumatlar ümumiləşdirilərək müəllif tərəfindən xarici kapitalın milli iqtisadiyyata olan təsiri qiymətləndirilmişdir.

***Açar sözlər: kapital ixracı, elmi-texniki tərəqqi, milli innovasiya sistemi, xarici investisiyalar, idarəetmə siyasəti.***

## *Giriş*

Azərbaycan iqtisadiyyatının indiki mərhələdə daha da inkişafı yalnız ölkənin istehsal potensialının keyfiyyətcə dəyişdirilməsi ilə mümkündür, bunun təməli elm və elmi intensiv texnologiyaların son nailiyyətlərini əks etdirən elmi və texniki inkişafların geniş tətbiqi və yayılmasıdır.

Ölkənin rəqabətədavamlı texnoloji potensialının inkişaf etdirilməsi problemi Azərbaycan iqtisadiyyatının əsas problemlərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müasir iqtisadi şəraitdə əsas yol kimi göstərilən innovasiyalı inkişaf yolu, bizi milli iqtisadiyyatımızın elmi və texniki potensialının reallaşdırılması üçün yeni yanaşmalar axtarmağa vadar edir. Bu problemin həlli böyük ölçüdə iqtisadiyyatın yüksək texnoloji sektoruna investisiya cəlb etmək üçün müasir maliyyə alətlərindən və mexanizmlərindən istifadə etmək bacarığından asılıdır. İnnovasiya layihələrinin icrası zamanı əhəmiyyətli risklərlə əlaqəli həyata keçirilməsinin ən ümidverici yollarından biri milli iqtisadiyyatın inkişafındakı oxşar problemlərin həllində effektivliyi dünya təcrübəsi ilə təsdiqlənmiş birbaşa xarici investisiyalardır.

**Kapital ixracı və onun üstünlükləri**

Birbaşa xarici investisiyalaşdırma prosesinin sinergizminin əsas üstünlüyü ondan ibarətdir ki, o özündə kapitalı mənimsəyib götürmə mexanizmi çərçivəsində texnologiya transferti ilə, həmçinin praktiki vərdiş və idarəçilik bacarığı ötürmə ilə uyğunlaşdırır. Bununla belə mültiplikativ effekt investisiyalaşdırma siklini fəallaşdıra bilər, bu da nəinki istehsalda, hətta iqtisadiyyatın digər sahələrində müsbət təsirini (kənd təsərrüfatı üçün dartıcı, xidmət sahəsi üçün isə təkanverici effekt) göstərəcək. Birbaşa xarici investisiyalar (BXİ) və kapital ixracı rəqabəti fəallaşdırır və orta və kiçik biznesin inkişafına kömək edir. BXİ-lərin düzgün təşkili, stimullaşdırılması və yerləşdirilməsi ölkə iqtisadiyyatında profilləşdirici sahələrin inkişafını sürətləndirir. Milli iqtisadiyyata BXİ cəlb etmənin əsas prinsiplərinin formalaşdırılmasını yalnız xarici investorların sahəvi preferensiyaları ilə məhdudlaşdırmaq olmaz, çünki bu metodoloji baxımdan yanlış olacaq. Bu hadisənin kontekstində resipiyent ölkənin makro, mezo və mikro səviyyələri nəzərdən keçirilməlidir, bu da milli iqtisadiyyata BXİ cəlb etmənin və kapital ixracının əsas amil və prinsiplərinin təhlilinin ayrılmaz tərkib hissəsidir. Bundan başqa, BXİ üçün mezosəviyyə və ya lokal ərazi üstünlüyünün, cəlbediciliyinin

səviyyəsi birbaşa xarici investisiyalaşdırma prosesini formalaşdırmanın mühüm mərhələlərindən biridir [1].”

Birbaşa xarici investisiyalaşdırma prosesinin motiv və üstünlüklərinin dəyişim mərhələlərini Azərbaycanın müasir iqtisadiyyatına və subyektlərinə ekstrapolyasiya edərək, qeyd etməliyik ki, onlar cəlbedici investisiya iqlimini formalaşdırmanın və ona uyğun olan BXİ cəlbetmə üzrə milli siyasətin ilk mərhələsindədir (bax Cədvəl 1).

*Cədvəl 1.*

***Kapital ixracının cəlb olunmasının üstünlükləri və bunun idarə edilməsi siyasətinin istiqamətləri***

| Mərhələlər | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|
| Üstünlüklərin xarakteristikaları | Cəlb olunan BXİ-lərin aşağı səviyyədə olması üstünlük kimi | Cəlb olunan BXİ-lərin həcmlərinin artım tempinin aşağı olması | Cəlb olunan BXİ-lərin azalması | BXİ ixracı BXİ cəlbini qabaqlayır | BXİ-lərin cəlb və ixrac həcminin artması |
| Q-üstünlüklər | Yerli şirkətlərin rəqabət qabiliyyətinin aşağı səviyyədə olması, yerli firmaların üstünlüklərinin olmaması, inkişaf etməmiş texnoloji və texniki baza | İxracın hesabına ənənəvi sektorlarda yerli firmaların rəqabət qabiliyyətinin artması | Yerli rəqabət qabiliyyətli firmaların artması, istehsalın texniki və texnoloji bazasının formalaşması | İnnovasiyaların modernləşdirilməsi hesabına yerli firmaların rəqabət qabiliyyətinin yüksək səviyyədə olması | TMŞ-lərin formalaşması və onların rəqabət qabiliyyətinin artması |
| **L**-üstünlüklər | İnkişaf etməmiş infrastruktur, ödəniş qabiliyyətli tələbatın, işçi heyətinin təhsil və ixtisasının aşağı səviyyədə olması | Yerli spesifik üstünlüklərin inkişaf etməsi, həcmlərin artması və lokal bazarın diversifikasiyası | Gəlirlərin və yüksək keyfiyyətli əmtəə və xidmətlərə ödəniş qabiliyyətli tələbatın artması | Adambaşına düşən gəlirin nisbətən yüksək olması, lokal əmtəə və xidmət bazarında ödəniş qabiliyyətli tələbatın yüksək səviyyədə olması | Adambaşına düşən gəlirin yüksək olması, lokal əmtəə və xidmət bazarında ödəniş qabiliyyətli tələbatın yüksək səviyyədə olması |
| **İ**-üstünlüklər | Xarici rəqiblərlə müqayisədə öncədən şərtləndirilməmiş xərclərin olmaması | Yerli firmalar üçün bir üstünlük kimi öncədən şərtləndirilməmiş xərclər amillərinin artması | Yerli firmalar üçün bir üstünlük kimi öncədən şərtləndirilməmiş xərclər amillərinin artması | Yerli firmalar üçün bir üstünlük kimi öncədən şərtləndirilməmiş xərclər amillərinin artması | Mənşə ölkəsinin TMŞ üçün bir üstünlük kimi öncədən şərtləndirilməmiş xərclər amillərinin yüksək səviyyədə olması |
| Üstünlüyün məzmunu | Texnoloji emalın ilkin sektorlarına yönəlmiş aşağı texnoloji istehsal üsullarının olması | Orta texnoloji istehsal üsullarının formalaşması, təqlid edilmiş innovasiyaların tətbiqi | Orta texnoloji istehsal üsullarının inkişaf etməsi, təqlid edilmiş və məhsul innovasiyalarının tətbiqi | Yüksək texnoloji istehsal üsullarının formalaşması, məhsul və idarəetmə innovasiyalarının tətbiqi | Yüksək texnoloji sahələrdə və innovasiya məhsullarında dünya liderliyi |
| Xarici investisiyaların cəlb edilməsi siyasəti | İdxalın əvəzlənməsi və ona nəzarət, yerli şirkətlərin dəstəklənməsi | Tarif siyasətinin formalaşdırılması, tarif maneələrinin aradan qaldırılması | BXİ sahəsində qanunvericiliyin liberallaşdırılması və ixracyönlü siyasət | BXİ sahəsində qanunvericiliyin liberallaşdırılması, bölgədə investisiyalar üçün cəlbedici iqlimin formalaşması | TMŞ tərəfindən BXİ ixracının təşfiqi, bölgə iqtisadiyyatının investisiya cəlbediciliyinin yüksək səviyyədə saxlanılması |

***Mənbə**: cədvəl müəllif tərəfindən tərtib olunmuşdur.*

Bu o faktı təsdiq edir ki, BXİ axınlarının iqtisadi inkişafını izah edən universal nəzəriyyə mövcud deyil, lakin bir çox metodoloji müddəalar ölkəyə BXİ cəlbetmə metodikası işlənib hazırlandığı zaman istifadə oluna bilər. Bir sıra nəzəri və metodoloji müddəalar üzərində aparılmış təhlilə əsaslanaraq BXİ cəlbetmə siyasətinin mühüm prinsiplərini qeyd etmək olar:

- rəqabət qabiliyyətinin nisbətən yüksək səviyyədə olmasına səbəb olan iqtisadi-texnoloji və resurs ixtisaslaşmasının spesifik sahələrinin birbaşa xarici investisiyalaşdırma proseslərinin stimullaşdırılması və motivasiyalaşdırılması ilə yerli sosial-iqtisadi maraqların prioritet dəstəyi;
- BXİ-lərin bölgə iqtisadiyyatının büdcəformalaşdırıcı sahələrinə cəlb olunması ilə bağlı olan multiplikativ sahəvi effektin institusional təminatı, bu da tarazlaşdırılmış iqtisadi artımın əsasında ərazinin sosial-iqtisadi inkişafının dayanıqlığını artırmağa imkan verəcək, bölgədaxili və bölgələrarası fərqlərin yumşalmasına kömək edəcək, bu isə yerli özünüidarəetmə sisteminin islahatlaşdırılması və onun gəlir bazasının yaradılması şəraitində xüsusilə aktualdı;
- resipiyent sahələrin sinergetik inkişaf vasitələrinin çeşidinin artırılması, bu da ölkənin gəlirlərinin akkumulyasiyasının səmərəliliyini və vergitutma bazasını artırmağa imkan verəcək.

Tədqiqatımız göstərdiyi kimi, məsələn, neftkimya sahəsinə cəlb edilmiş ölkələr texnoloji transfertin kifayət qədər yüksək səviyyəsi və səmərəliliyi ilə xarakterizə olunur. Bu transfert yalnız xarici texnologiyaların deyil, həmçinin idarəçilik və təşkilati-iqtisadi yeniliklərin mənimsənilib götürülməsi ilə müşayiət olunur. Buna görə bölgənin institusional potensialına uyğun olan BXİ-lərin cəlb edilməsi bəraətvericidir. Lakin yüksək texnoloji və təşkilati səviyyəyə malik BXİ-lərin transferti üçün Azərbaycanda hələlik lazımi institusional və infrastruktur müqəddimələri yaradılmayıb və bu texnologiyalar tələbatsız və ya tam həcmdə reallaşdırılmamış qalacaq, bu isə həm respublikanın investisiya iqliminə, həm də xarici investorun özünə ziyan vura bilər. Milli iqtisadiyyatın absorbsiya siyasətinin məzmunu yalnız institusional və investisiya iqliminə uyğun investisiya layihələrini seçmək, uyğunlaşdırmaq, imitasiya etmək və tirajlamaqdan ibarətdir. Yalnız bu məsələlər həll olunduğu zaman BXİ-lər xarici texnologiyaları mənimsəyib götürmə mexanizminin tətbiqi, onların milli şəraitə uyğunlaşdırılması, həmçinin istehsalın və satışın təşkili və idarəçiliyinin yaxşılaşdırılması, dərin marketinq tədqiqatları, sənaye logistikası sxemlərinin və s. tətbiqi sayəsində istehsalın səmərəliliyini artıra və satış bazarlarını genişləndirə bilər.

Tədqiqatlar və qabaqcıl təcrübə göstərdiyi kimi, innovasiya siyasətinin ən effektiv alətləri və mexanizmləri subyekt səviyyəsində işlənib hazırlanır və reallaşdırılır. Lakin milli və bölgə alətləri xeyli fərqləndiyi üçün onları milli innovasiya sisteminə əsaslanan yanaşmalar çərçivəsində həyata keçirmək olduqca çətindir. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, milli innovsiya sisteminin (MİS) formalaşmasında və inkişafında BXİ-lərin rolunu xarakterizə edərkən onlar bölgə iqtisadiyyatının digər texnoloji quruluşa görə yaxın sektorlara permanent diversifikasiyası üçün alət kimi çıxış edə bilər. Bununla belə Milli İnnovasiya Sistemi BXİ cəlbetmə mexanizmlərindən istifadə etməklə yerli şirkətləri effektiv innovasiya texnologiyalarını məmimsəyib götürmə alətləri ilə təmin etməlidir. Məlum olduğu kimi, bölgə səviyyəsində innovasiyaların inkişafını təmin edən universal tədbir dəsti mövcud deyil. Lakin bu sahədə səmərəli alətlərdən biri kimi BXİ cəlb etməklə texnologiyaları mənimsəyib götürmə mexanizmi çıxış edə bilər. Onu da vurğulamaq lazımdır ki, MİS formalaşdırma proseslərinin uyğunlaşdırılmasının məntiqi, fikrimizcə, innovasiya fəallığının texnologiya mənimsəyib götürmə mexanizmləri ilə müəyyən ardıcıllıqda qarşılıqlı əlaqəsini nəzərdə tutur. Düşünürük ki, MİS-in formalaşdırılmasında dünya bazarında səmərəliliyi ilə nüfuz qazanmış xarici qabaqcıl texnologiyaların mənimsənilib götürülməsinin səmərəli absorbsiya mexanizmi çıxış nöqtəsi olmalıdır. Və yalnız MİS yaradıldıqdan sonra və o, yeni mənimsənilib götürülmüş texnologiyalarla təmin olunduqca yerli müəssisələrin mütəxəssislərində bilik və vərdiş yaranır, sonuncular isə həmin mütəxəssislərdə innovasiya fəallığının və yeni innovasiya yaratmağa stimulun əmələ gəlməsi və formalaşması üçün təməl qoyacaq. Bu gün bölgə müəssisələrinin mütəxəssislərinin ixtisas səviyyəsi dünya bazarında həqiqətən də rəqabətqabiliyyətli innovasiya məhsulları yaratmağa imkan vermir. Təcrübə göstərir ki, məhsul və texnoloji innovasiyaların əksəriyyəti ölkəmizdə təqlid xarakteri daşıyır və yalnız Azərbaycan üçün innovasiyadır. Ölkədəki müəs-

sisələrin innovasiya fəallığının aşağı səviyyədə olması məhz bununla izah olunur. Milli iqtisadiyyatın inkişafına baxmayaraq son on il ərzində ÜDM-in ümumi həcmində elmi-tədqiqat və təcrübi-konstruktor işlərində (ETTKİ) investisiyaların payı aşağı səviyyədə olaraq qalırdı. Bununla belə ETTKİ-lərin yalnız 20%-i bilavasitə müəssisələr tərəfindən maliyyələşir, halbuki Finlandiyada bu göstərici 70%-dən artıq, Böyük Britaniyada - 48% təşkil edir. Bunun bir səbəbi var – müəssisələrin innovasiyalı inkişaf üçün stimulu və motivasiyası yoxdur. Bu vərdişləri xüsusi olaraq aşılamaq lazımdır, önlar özü-özlüyündə yaranmır. Bu proseslərin inkişafının nəticəsi kimi bölgənin dünya bazarında aşağı rəqabət qabiliyyətli olmasının digər səbəbi çıxış edir, sonuncu isə işçi qüvvəsinin ixtisas göstəricilərinin strukturu və aşağı səviyyədə olması ilə bağlıdır. Azərbaycanda tələbə buraxılışında iqtisadi, idarəetmə və sosial-humanitar profilli ixtisasların payına ənənəvi olaraq 2019-cu ildə 67,6%, təbii-elmi, texniki və tibbi ixtisasların payına isə - yalnız 22,4% düşürdü. Halbuki İsveçdə humanitar profilli məzunların payına yalnız 24,6%, Almaniyada – 29,3% düşür. Azərbaycanda tədqiqatçıların adambaşına düşən sayı Türkiyədən və Estoniyadan geri qalaraq Rusiya üzrə orta səviyyənin cəmi 14%-ni təşkil edir. Son on il ərzində Azərbaycanda ETTKİ sahəsinin işçilərinin sayı get-gedə azalır. 2018-ci ilə nisbətən 2019-cu ildə Azərbaycanda ETTKİ sahəsində məşğulluq 18% azalıb [6]. Bizim qiymətləndirmələrimizə görə, xarici mülkiyyətli şirkətlərdə işçi heyətində İKT mütəxəssislərinin payı Azərbaycanın digər müəssisələrinə nisbətən 6 dəfə çoxdur (bax Cədvəl 2).

*Cədvəl 2.*

***Azərbaycanda İKT mütəxəssislərinin mülkiyyət növünə görə məşğulluğu***

| **Mülkiyyət növünə görə müəssisənin tipi** | **Müəssislərdə ümumi məşğul olanların sayında İKT/İT mütəxəssislərinin payı (faizlə)** | **Müəssisələrdə ümumi məşğul olanların sayında ETTKİ işçi heyətinin payı (faizlə)** |
|---|---|---|
| Bütün müəssisələr | 0,5 | 0,4 |
| Xarici mülkiyyətli müəssisələr | 2,9 | 1,1 |

*Mənbə: Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və Az.Dövlət Statistika Komitəsinin materialları [4].*

İnnovasiyalı inkişafa keçid üzrə absorbsiya siyasətinin prioritetliyi məsələsinin həlli üçün aşağıda qeyd etdiyimiz bir sıra alətdən istifadə etməyi təklif edirik:

- patent əldəetmə, texnoloji transfert mərkəzlərini maliyyələşdirmə formasında texnologiya mənimsəyib götürmələrin birbaşa dövlət dəstəyi siyasəti;
- daxili investisiya resurslarının yönümünü texnopark və texnopolislərin yaradılmasından qabaqcıl avadanlıq və texnologiya idxalına (mənimsəyib götürülməsinə), onların uyğunlaşdırılmasına və tirajlanmasına dəyişmə;
- bölgələrin ixtisaslaşmasından asılı olaraq milli iqtisadiyyata BXİ cəlbetmə, həmçinin birgə müəssisələrin yaradılmasını fəallaşdırma.

**Azərbaycanda elmi-texniki tərəqqi və xarici kapitalın cəlb olunması**

Mənimsəyib götürmə mexanizmini bölgəyə BXİ cəlbetmə və bunun əsasında texnoloji və institusional (infrastruktur) baxımdan innovasiyalara həssas iqtisadiyyat formalaşdırma aləti kimi nəzərdən keçirmək məntiqi olardı. Qeyd etmək lazımdır ki, Azərbaycanda və onun subyektlərində faktiki olaraq mənimsəyib götürmə mexanizmi get-gedə innovasiyalı inkişafın institusional mühitini fəth edir. Tədqiqatımız göstərdiyi kimi, bütövlükdə 2019-cu ildə xarici ölkələrdə avadanlıq, maşın və proqram təminatı (mənimsəyib götürmə) satın almış müəssisələrin Azərbaycan üzrə payı özü ETTKİ yerinə yetirən müəssisələrdən üç dəfə çox idi.




***Şəkil 1. Bir sıra ölkə və bölgələrdə ETTKİ-lərin və texnologiya mənimsəyib götürmənin həcmlərinin nisbəti***

***Mənbə:*** *Российский Научно-Исследовательский Университет “Высшкая школа экономики» [5].*

Azərbaycanda ümumilikdə vəziyyət ölkəmizə xas olan və qeyd edilən göstəricilərin nisbətlərinin ümumi meyillərini əks etdirir. Bununla yanaşı iqtisadiyyatın real sektorunda yerli innovasiya fəaliyyətinin “konfiqurasiyasında” aydın ifadə olunan nöqsanlar var. Bu nöqsanlar Azərbaycanda, Avropa ölkələri ilə müqayisədə, öz işçi heyətinə təlim keçən müəssisələrin payının xeyli aşağı olması ilə bağlıdır.

***Cədvəl 3.***

***İqtisadiyyatın innovasiyalı inkişafı üçün BXİ cəlbetmə mexanizminin səmərəliliyinin artırılmasının məqsəd və alətlərinin strukturu***

| **Əsas məqsədlər** | **Alətlər** |
|---|---|
| Milli innovasiya sisteminin birbaşa xarici investisiyalar üçün investisiya cazibəliliyini artırma | - innovasiya forumunu yaratma;<br>- innovasiya fəaliyyətinin monitorinq sistemini formalaşdırma;<br>- autsorsinqi stimullaşdırma;<br>- iri firmaların tədqiqat şöbələrinin inkişafını stimullaşdırma;<br>- kiçik, orta və iri müəssisələrin texnoloji cəhətdən modernləşdirilməsinə dəstək;<br>- elmtutumlu sahibkarlıq fəaliyyətini maliyyələşdirmə;<br>- xarici kapitalın iştirakı ilə birgə müəssisələrin yaradılmasına dəstək |
| İnnovasiyaların kommersiya məqsədi ilə istifadəsi üçün dəyərliliyini müəyyənləşdirmə üzrə absorbsiya mexanizmi formalaşdırma | - yeni avadanlıq və texnologiya idxalının tənzimlənməsi;<br>- lisenziyaların satın alınmasını stimullaşdırma;<br>- effektiv tarif siyasəti;<br>- yeni idarəetmə və təşkiletmə texnologiyalarını mənimsəmə |
| Qabaqcıl texnologiyaları səmərəli mənimsəyib götürmə institutunu formalaşdırma və inkişaf etdirmə | - mənimsəyib götürmələrə birbaşa dövlət dəstəyi siyasəti;<br>- ETTKİ sahəsinin və müəssisələrin içşi heyətinin xarici ölkələrdə təlimi və təcrübə keçməsi;<br>- xarici ölkələrdən müəllim dəvət etmə;<br>- inkişaf etmiş xarici dövlətlərdə təhsil almış və təcrübə qazanmış ölkə vətəndaşlarının geri qayıtmasını stimullaşdırma;<br>- vençur maliyyələşdirilməsi şəklində kapital bazarını mənimsəyib götürmələri bank kreditləşdirilməsi sistemi ilə əvəz etmə. |

***Mənbə****: cədvəl müəllif tərəfindən tərtib olunub.*

Milli innovasiya sistemini formalaşdırma və inkişaf etdirmə amili kimi birbaşa xarici investisiyaları cəlbetmə mexanizminin diaqnostikasına əsasən bu mexanizmlərin səmərəliliyini artırmağa və iqtisadiyyatın dayanıqlı artımını təmin etməyə imkan verə biləcək bir sıra qarşılıqlı əlaqədə olan və bir-birini tamamlayan tədbir təklif etmək olar (bax Cədvəl 3.).

Yerli və xarici iqtisadi ədəbiyyatda iqtisadi və innovasiyalı inkişafın BXİ-lərdən asılılığının kifayət qədər böyük sayda nəzəri modelləri göstərilib [1]. Bununla əlaqədar bu modellərdə BXİ-lərin iqtisadi artımaya innovasiya fəallığına təsir etdiyini ayırd etmək olduqca çətindir. Sözsüz ki, bu proseslər bir-biri ilə sıx bağlıdır və bir-birindən asılıdır və hər birinin təzahür spesifikasını aşkar etmək olduqca çətindir. Bununla əlaqədar iqtisadi artımın BXİ-lərdən asılılıq modellərini nəzəri olaraq iqtisadi sistemlərin innovasiya fəallığına ekstrapolyasiya etməyə cəhd etmək olar. Buna görə böyük ehtimalla fərz etmək olar ki, resipiyent ölkənin bu və ya digər sahəsində ixracyönlü istehsal öz inkişafının innovasiya meydançasının formalaşması üçün maddi və əqli baza ola bilər. Bu səbəbdən BXİ-lərin təsirinin nəticəsi kimi resipiyent ölkənin iqtisadi artımından bu və ya digər sahənin innovasiya sektorunu fəallaşdırmaq və ya formalaşdırmaq üçün tam əsaslandırılmış şəkildə istifadə etmək olar. Bunun üçün resipiyent ölkənin iqtisadi artımında BXİ-lərin rolu qiymətləndirildiyi zaman multiplikatorun klassik modeli tətbiq oluna bilər. Məlum olduğu kimi, bu modelin əsas prinsipi dinamik investisiya multiplikatorunun və ya investisiyaların son hədd məhsuldarlığının nəzərə alınmasıdır [2]. Resipiyent ölkənin iqtisadiyyatında BXİ-lərin iştirakı modeli çərçivəsində iqtisadiyyatın yerli və xarici sektorları üçün aşağıdakı göstəricilərin qiymətləndirilməsi nəzərdə tutulmalıdır:

$$r = \frac{\Delta X}{\Delta Y} \quad \text{və} \quad r^* = \frac{\Delta X}{\Delta I^*}$$

Burada: X – yerli sektorun istehsal etdiyi məhsul;
X*- ölkədə xarici sektorun istehsal etdiyi məhsul;
Y=X+X*; - yerli sektorun investisiyaları;
I*- birbaşa xarici investisiyalar (BXİ);
r - iqtisadiyyatın yerli sektorunun investisiya multiplikatoru;
r* - BXİ multiplikatoru.

Riyazı təfsirdən aydın görünür ki, multiplikator-akselerator modeli BXİ axınının iqtisadi artımın parametrləri ilə qarşılıqlı əlaqəsinə daha uyğundur, çünki investisiya akseleratoru investisiya səmərəliliyi əmsalı mənasını daşıdığını şəffaf göstərir və baza dövrü ilə bağlıdır. Bundan əlavə, bu model məqsədyönlü BXİ axınının tənziminə yönəldilmiş adekvat idarəetmə qərarlarının qəbulunda yerli hakimiyyət orqanlarının birbaşa iştirakını nəzərdə tutur, bu da öz növbəsində, xarici investor fəallığının əsassız stimullaşdırılmasına yönəldilmiş səylərə və vəsaitlərə qənaət etməyə imkan verir.

## *Nəticə*

Apardığımız tədqiqat göstərdi ki, subyektlərin innovasiya fəallığına BXİ-lərin təsir modellərinin nəzəri təhlili nəticəsində böyük ehtimalla güman etmək olar ki, innovasiyalı inkişaf üçün BXİ cəlbetmə amilləri kimi aşağıda sadalananlar çıxış edir:

- elmi-texniki sahədə keçən illərdə hazırlanmış və istifadə olunmamış, investisiya resurslarının yetərincə olmadığından reallaşdırılmamış ETTKİ ehtiyatlarının nisbətən yüksək səviyyəsi;
- innovasiya fəaliyyətini həyata keçirə biləcək təşkilatların, kollektivlərin, ayrı-ayrı mütəxəssislərin nisbətən yüksək innovasiya potensialı;
- yüksək potensiala malik, lakin nəinki lazımi vəsaitin, hətta lazımi səviyyədə olan innovasiya menecmentinin olmadığına görə innovasiya fəaliyyətini həyata keçirə bilməyən innovasiya təşkilatlarının mövcudluğu.

## ƏDƏBİYYAT

1. Плотников А.Н., Апситис Е.В. Обзор моделей инновационного процесса на основе работ западных ученых // Инновационная деятельность. 2012. № 20, с. 28–33.

2. Хрусталев Е.Ю., Славянов А.С. Проблемы формирования инвестиционной стратегии инновационно ориентированного экономического роста//Проблемы прогнозирования. 2011.№ 3.
3. Gəncıyev G.Ə., Ələkbərov Ə.R., Məmmədova-Gənciyeva L.G. Transmilli korporasiyalar, Bakı, Elm, 2007. -192 s.
4. https://www.stat.gov.az/source/communication
5. https://issek.hse.ru/press/221888720.html
6. https://www.stat.gov.az/source/education/

***Фуад Октай оглы Гаджиев***
***докторант Азербайджанского***
***Университета Кооперации***

**Анализ взаимосвязи между экспортом капитала и инновационной деятельностью**

***Резюме***

**Цель исследования:** в статье рассматриваются различные взаимосвязи экспорта капитала и инновационного развития. Автор затронул и актуальные направления развития экспорта капитала в Азербайджане в современное время.

**Методика исследования:** сравнительный и аналитический анализ.

**Прикладное значение исследования:** автор уделил внимание ряду теоретических и практических вопросов и провел детальный анализ.Из исследованных аспектов можно назвать такие вопросы, как преимущества привлечения экспорта капитала, динамика инвестиций в научно-исследовательские и опытно-конструкторские работы, занятость специалистов ИКТ в Азербайджане по видам собственности.

**Результаты исследования:** дана модель, характеризующая влияние иностранных инвестиций на развитие инновационной экономики. В конце статьи отражены научные результаты проведенного исследования.

**Оригинальность и научная новизна исследования:** Автором обобщены и оценены теоретико-методологические данные и влияние иностранного капитала на национальную экономику.

***Ключевые слова: экспорт капитала, научно-технический прогресс, Национальная инновационная система, иностранные инвестиции, политика управления.***

***Fuad Oktay Hajiyev***
***Azerbaijan Cooperation University***
***Student of PhD***

**Analysis of the relationship between capital exports and innovation activities**

***Summary***

**The purpose of the study:** the article describes the various links of capital expenditure and innovative development. The author touched upon the directions of the actual development of kopital's khakhraji in Azerbaijan.

**Methodology of the study:** comparative and analytical analysis.

**Significance of the study:** the author focused on a number of theoretical and practical issues and conducted a detailed analysis.Among the studied aspects, we can name such issues as the advantages of attracting capital expenditure, the dynamics of investments in research and experimental design work, the involvement of ICT specialists in the type of ownership in Azerbaijan.

**Results of the study:** the impact of foreign investment on the development of innovative economy has been presented. At the end of the article, the scientific results of the research were reflected.

**Originality / value of the study:** theoretical and methodological data were summarized and evaluated by the author the influence of foreign policy on national economy.

***Key words: capital investment, scientific and technical promotion, National Innovation System, Foreign Investment, Management Policy.***